Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**

# Milli Qəhrəmanlar Zirvəsi

**Milli Qəhrəmanlarımızla bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2017**

**Tərtibçilər:** **Lalə Qəmbərova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Milli Qəhrəmanlıq Zirvəsi:** metodik vəsait / tərt.ed. L.Qəmbərova; red. K.Ağazadə; ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-34s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçidən

Azərbaycanın müstəqilliyi, torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə minlərlə insanımız iştirak etmiş və şəhidlik zirvəsinə qalxmışdır. Onlardan 214 nəfəri Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli bir ada layiq görülmüşdür.

Bu gün ölkəmizin qorunmasında, saxlanılmasında, müstəqil dövlət kimi yaşamasında və inkişaf etməsində Milli Qəhrəmanlarımızın böyük rolu olmuşdur. Məhz bu səbəbdən də hər bir azərbaycanlı onları öyrənməli, tanımalı, sevməli, onların xidmətlərini daim xatırlamalı, qiymətləndirməli, tanıtdırmalı, bugünkü və gələcək nəsillərimizə örnək olan ömürlərindən dərs almalı, onlara minnətdar olmalıdır!

Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikasını qorumaq, onun sərhədlərini sarsılmaz etmək, işğal olunmuş torpaqlarımızı azad etmək üçün Azərbaycanın güclü Milli Ordusu, Silahlı Qüvvələri olmalıdır və Azərbaycan gəncləri orduda xidmət etməyi özlərinin ən ümdə, ən şərəfli borcu hesab etməlidirlər.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların, qanlı döyüşlərdə misilsiz şücaət göstərənlərin qəhrəmanlığı elə yüksək dərəcəyə çatmışdır ki, bu insanlar ölkəmizin ən ali fəxri adına – Azərbaycan Respublikasının Milli Qəhrəman adına layiq görülmüşlər. Milli Qəhrəmanların həyat yolunu, döyüş şücaətlərini hər bir Azərbaycan vətəndaşı bilməli, ondan nümunə götürməli, təbliğ etməlidir, çünki onların həyat yolu bizi qələbəyə aparan yoldur.

Bu vəsaitin yazılmasında məqsəd Milli Qəhrəmanlarımızı bugünkü və gələcək nəsillərə daha da geniş tanıtmaq, təhsil və mədəniyyət müəssisələrində "Vətənpərvərlik" mövzusunda keçiriləcək tədbirlərə köməklik göstərməkdən ibarətdir.

## Yaddaşlarda yaşayan igidlər

Ulu babalarımızın bugünkü nəsillərə müqəddəs əmanəti Azərbaycan! Bu torpağın hər bir qarışı bizim üçün candan əzizdir. Çünki bu torpaq hər bir qarışı üçün canından keçmiş, nanəcib düşmənlərimizə, bədnam qonşularımıza qarşı ölüm-dirim çarpışmalarında şəhid olmuş ata-babalarımızın qanından yoğrulmuşdur. Odlar yurdu vətənim qədim tarixə, tükənməyən yeraltı və yerüstü sərvətlərə malikdir. Lakin tarix boyu qardaş bilib güvəndiyimiz, dar zamanda bizə kömək edəcəyinə inandığımız bədnam qonşularımız bizə bir yağlı tikə kimi baxmışdılar. Şükürlər olsun ki, Ulu Tanrı bu sərvətləri bizə verərkən onların keşiyində layiqincə dura biləcək Babək, Cavanşir, Koroğlu, Uzun Həsən, Şah İsmayıl Xətai, Mehdi Hüseynzadə, Şövqiyar, Mübariz və s. kimi oğullar nəsib etmişdir.

Dədə Qorqudun gözəl bir kəlamı var: Torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməsən, qorumağa dəyməz.

Dünyada hər bir qəhrəmanlığın, fədakarlığın, hər hünərin və zəfərin anası məsləkdir, əqidədir. Məslək və əqidə isə ilk növbədə vətənlə bağlıdır.

Dünyada insanlığın ən böyük şərtlərindən biri də vətən sevgisidir. Bu yerdə ulu öndər Heydər Əliyevin gözəl kəlamları yada düşür: "Xalqımız böyük xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini yüksəldərik. Vətənini sevən əsl Azərbaycan gəncləri qəhrəmanlıqla şəhid olmuşlar".

Azərbaycan 1988-ci ildən böyük bir faciə ilə rastlaşmışdır. Ölkəmizin ərazisinin bir qismini ayırıb Respublikamızı parçalamaq məqsədilə Azərbaycana qarşı hərbi təcavüz edilmişdir. Bu hərbi təcavüz sonralar müharibəyə çevrilmiş və

Azərbaycan xalqı qanlı müharibə aparmışdır. Bu müharibədə, döyüşlərdə xalqımızın igid oğlanları qəhrəmanlıq göstərmişlər, şəhid olmuşlar.

Ümumiyyətlə, Azərbaycanın uğurları da, təəssüf ki, məğlubiyyətləri də olmuşdur. Xalqımız vuruşmuş, döyüşmüş, böyük qurbanlar vermişdir. Bu vuruşlarda, bu döyüşlərdə vətənimizə, ölkəmizə, dövlətimizə, xalqımıza böyük sədaqət göstərən gənclər, döyüşçülər, əsgərlər, zabitlər, vətəndaşlar çox olmuşdur. Məhz buna görə də Azərbaycan bir müstəqil dövlət kimi yaşamış və inkişaf etmişdir.

Əsrimizin 90-cı illərində siyasi müstəqilliyə nail olan Azərbaycan xalqı onun suverenliyinə təhlükə yaradan və müasir orduya malik olan xain qonşularla üzbəüz tək qalmışdı. Bu vəziyyət ən qısa vaxtda qəti tədbirlərin görülməsini, təsirli vasitələrə əl atılmasını tələb edirdi. Azərbaycan ordusunun yaradılmasının elə ilk günlərindən neçə-neçə vətənpərvər zabit onun sıralarında birləşib və mürəkkəb prosesin ağırlığına çiyin verdilər. Çağdaş hərb tariximizin parlaq şəxsiyyətləri vuruşaraq qəhrəmanlıq simvoluna çevrildilər.

Bunlardan Abdullayev Şövqiyar, Ağayev Bəylər, Abbasov Mehdi, Bağırov Allahverdi, Qasımov Muxtar, Qəmbərov Ramiz, Məmmədov Aqil, Əhmədov Riad, Şikarov Şikar, Mövsumov Kazımağa, Mirzəyev Kərəm, Mustafayev Çingiz, Tağıyev Şahin, Hümbətov Fərhad, Quliyev Aqil və başqalarını misal göstərmək olar. Onlar ilk Milli Qəhrəmanlardır. Hansı ki, igidlikləri ilə qəhrəmanlığın ən yüksək zirvəsinə çatmışdılar.

2010-cu il 19 iyulda 22 yaşlı gizir Mübariz İbrahimovun göstərdiyi qeyri-adi igidliyin xəbəri bütün Azərbaycana yayılmışdı. Bu xəbər hamıda, vətən sevgisi olan hər bir insanda qürur hissi oyatmışdı. Mübariz bu gün hamının tanıdığı qəhrəmandır.

Düşmənə baş əyməyən Mübariz düşmənə xeyli itki verib, özü də şəhid olmuşdu. Onun və “İgidliyə görə” medalı ilə təltif edilmiş baş leytenant Fərid Əhmədovun vida mərasimi noyabrın 7-də keçirilmişdi. Bu vətənpərvər gənclər bir amala xidmət edirdi: Vətənim yaşasın, var olsun, torpağım əsirlikdən, yağı qəsbkarlardan azad olsun, xalqım sülhə, dincliyə qovuşsun.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Azərbaycanımızın Qəhrəman oğulları Mübariz və Fəridin dəfn mərasimində çıxışında demişdir: “Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır. Onlar Ali Baş Komandanın əmrini gözləyirlər. Onlar öz doğma torpaqlarını azad etmək üçün hər an hazırdırlar. Bizdə nəinki böyük sayda silah-sursat, hərbi-texnika, döyüş imkanları vardır, eyni zamanda, ordumuzda böyük ruh yüksəkliyi vardır. Çünki bizim işimiz haqq işidir. Biz heç bir ölkənin torpağını zəbt etməmişik. Bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Bizim heç bir başqa dövlətin torpağına iddiamız yoxdur. Amma öz torpağımızdan heç kimə bir qarış verməyəcəyik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Mübarizlə Fərid başqa ölkənin ərazisində həlak olmamışlar, öz doğma torpağında şəhid olmuşlar”.

Biz də inanırıq ki, onların müqəddəs ruhları Allah dərgahında mübarək adları ilə xalqımızın qəlbində əbədi yaşayacaq.

Öz qanınla adını,
Yazdın torpağa, daşa
Milli qürura dönüb,
Dedin vətən şən yaşa.

Milli qəhrəmanımsan,
Milli qürurum mənim,
Qorxmaz dəyanətinlə,
Vətən uğurum mənim.

Vətən təkcə yurd, yuva, el oba deyil, vətən bizik, vətən sənsən, vətən mənəm, vətən hər birimizik, vətənin dünəni də, bu günü də, sabahı da, gələcəyi də bizimdir. Və biz vətənin hər anı, hər bir məqamı üçün cavabdehik. Məhz elə buna görə də Azərbaycanın gəncləri də öz vətənini, yurdunu, xalqını, torpağını sevərək, vuruşaraq, şəhid olmuş, öz əməlləri ilə Milli Qəhrəmanlıq zirvəsinə çatmışdılar.

Bu gün torpaqlarımızın 20% Ermənistanın işğalı altındadır. Yüz minlərlə insanımız qaçqın və məcburi köçkün həyatı yaşayır. Hər bir Azərbaycan gənci torpaqlarımızın azad edilməsi uğrunda şəhidlik zirvəsinə, Qəhrəmanlıq zirvəsinə hazır olmalıdır.

Xalqı yaşatmaq üçün canından keçən igid oğullar heç zaman unudulmurlar. Nəsillər onları yaşadır, sənətkarlar bu ölməz övladların mənəvi abidələrini ucaldırlar.

Dövlətimiz də bu istiqamətdə çoxlu işlər görür. Rəşadətli döyüş yolu keçmiş qəhrəmanlarımızın adına küçə və meydanlar verilir, abidələri və büstləri ucaldılır, adlarına məqalələr yazılır, xatirə kitabları buraxılır.

Milli Qəhrəmanlarımızı gənc nəslə, məktəblilərə tanıtmaq üçün kitabxanada bir sıra tədbirlər keçirilə bilər. Kitabxanalarda keçiriləcək tədbirlərdən oxucu konfransı, dəyirmi stol ətrafında söhbət, kitab müzakirəsi, şeir, rəsm və inşa müsabiqələrini, anım günü və başqalarını nümunə göstərmək olar. Belə tədbirlərin keçirilməsində məqsədimiz, həmçinin gənc nəslə vətənpərvərlik ruhunu aşılamaqdır. Tədbirlər planının geniş və maraqlı olması üçün ilk əvvəl sərgilərin təşkil olunması vacibdir. Sərgilər

müxtəlif cür təşkil oluna bilər. Məsələn, kitab sərgisi ( kitab, buklet, dövri mətbuatda nəşr olunan qəzet və jurnallar), Milli Qəhrəmanların orden və medallarının sərgisi, fotoşəkillərinin, rəsm əsərlərinin sərgisi və s.

Həmçinin sərgiyə müxtəlif başlıqlar verilə bilər. Məsələn: "Heç kim, heç nə unudulmayacaq", "Qəhrəmanlar ölmürlər", "Vətənin başını uca edənlər", "Ölümdən qorxmayan oğullar", "Qəhrəmanlar unudulmur", "İgid ölər, adı qalar", "Vətən oğulları", "Qaliblərin kədəri", "Yaddaşlarda yaşayan igidlər", "Nahaq qan yerdə qalmaz", "Ulusan, ulu ad daşıyacaqsan", "Əbədiyyətə qovuşan ömür", "Nəsillərə yadigar əfsanəvi qəhrəmanlıq", "Xalqın igid oğulları", "Vətənin layiqli övladları" və s.

Sərgidə Milli Qəhrəmanlar haqqında yazılmış kitabların, müxtəlif mətbuat orqanlarında məqalələrin verilməsi, eləcə də görkəmli şəxsiyyətlərin "Vətən" haqqında söylədiyi kəlamlardan istifadə edilməsi gənc oxucularda onlar haqqında ətraflı təsəvvür formalaşdıra bilər.

# Kitab Sərgisi



























**Görkəmli şəxslərin Vətən haqqında söylədikləri fikirlər:**

Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Vətəndaş olmasa boş şeydir Vətən!
Beş günlük, on günlük güney qarıdır.
Vətən məfhumunun özəyindəki
Vətənin vüqarlı oğullarıdır!

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Vətənim verdi mənə namü-nəmək,
Vətəni məncə unutmaq nə demək.

**Abbas Səhhət,**
*Şair, dramaturq*

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim.

**Məmməd Araz,**
*Xalq şairi*

Vətən borclu deyil, biz borcluyuq Vətənə.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Unudulmaz el yolunda canı qurban olanlar,
Vətən mülkü abad yaşar vəfadarı görəndə.

**Səməd Vurğun,**
*Xalq şairi*

Bir yoxsul qürbətdə şah olsa əgər
Hər axşam o vətən deyib ah çəkər.

**Əssar Təbrizi,**
*Azərbaycanlı alim, şair*

Bastığın yerlərə torpaq deyərək keçmə, tanı:
Düşün altında minlərcə kəfənsiz yatanı.
Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı:
Vermə, dünyaları alsan da, bu cənnət vətəni.

**Mehmet Akif Ərsoy,**
*Türk şairi*

Döyüş meydanında can versə insan
Xoşdur, namərdliklə qoyub qaçmaqdan.

**Sədi Şirazi,**
*Fars şairi*

Özünü vətəndaş zənn edən bir kəs,
Vətənin dərdinə yad qala bilməz.

**Nikolay Alekseyeviç Nekrasov,**
*Rus şairi*

Həqiqi namuslu insan ailəsini özündən, vətənini ailəsindən, insanlığı isə Vətənindən uca tutmalıdır.

**Jan Leron Dalamber,**
*Fransız riyaziyyatçısı*

Öz Vətəninə mənsub olmayan insan, bəşəriyyətə də mənsub deyil.

**Vissarion Qriqoryeviç Belinski,**
*Rus publisisti və ədəbi tənqidçisi*

Vətən uğrunda ölüm qədər dadlı və şərəfli ölüm varmı?

**Kvint Flakk Horatsi,**
*Qədim Roma şairi*

Milli Qəhrəmanlarımızla bağlı kitabxanalarda respublikanın ümumi təhsil məktəblərinin şagirdləri arasında **"İgid ölər, adı qalar"** mövzusunda *inşa yazı müsabiqəsi* təşkil etmək olar. Bu məqsədlə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Müsabiqəyə hazırlıq məqsədilə bir həftə əvvəldən məktəblilər Milli Qəhrəmanlarımızın döyüş yolundan bəhs edən kitabları oxuyub, məlumat toplayırlar. Müsabiqə təyin olunmuş vaxtda keçirilir. Müsabiqənin qalibləri kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır.

Həmçinin Milli Qəhrəmanlarla bağlı azyaşlı uşaqlar üçün təşkil edilən tədbirlərdən biri də *səhərcikdir*. Səhərciyin uşaqlar üçün əhəmiyyəti böyükdür. Ələmdar Quluzadənin "Azadlıq yolu", "Ölümdən sonrakı ad", "Yaralı əsgər", "Bu dərdi necə yazım", "Oğlum əsgər gedir" və "Hərbi and" şeirləri üzrə səhərciyin və ucadan oxunun hazırlanması daha yaxşı olar.

Kitabxanada keçirilən ənənəvi tədbirlərdən biri *kitab müzakirəsinin verilməsidir*. Kitabın müzakirəsində təcrübəli

kitabxanaçı, orta və yuxarı siniflərdə təhsil alan şagirdlər iştirak edirlər.

**Kitabxanaçı:** Vüqar Əsgərovun "Azərbaycanın Milli Qəhrəmanları" kitabının həcmi kiçik olsa da, siqləti, məna tutumu böyükdür. Burada Azərbaycanın adını ucadan-uca tutan 209 qəhrəmanın adı verilmiş, hər birinin öz döyüş hünəri, rəşadəti, öz tərcümeyi-halı göstərilmişdir. Onların hamısını eyni məqsəd, eyni amal birləşdirmişdi: Azərbaycanın suverenliyi, dövlətçiliyi və torpaqlarımızın bütövlüyü! Azərbaycanın Milli Qəhrəmanları barədə çox yazılmış, ekrandan, efirdən çox deyilmiş, ayrı-ayrı kitablar buraxılmış, sənədli filmlər çəkilmişdir. Lakin ilk dəfə, onların hamısını "bir dam altında" toplayan bu kitab gərgin zəhmət bahasına başa gəlmişdir. Kitabı Qarabağ müharibəsinin iştirakçısı Vüqar Əsgərov neçə müddət respublikamızın əksər rayonlarına gedərək qəhrəmanların doğmaları, yaxınları, dostları, tanışları ilə görüşmüş və zəngin faktlar toplayaraq yazmışdır.

**Kitabxanaçı:** Tarix XX əsrin sonlarında bizi neçə-neçə sınaqlara çəkdi. Biz 20 Yanvar qırğınından, Xocalı soyqırımından keçdik, Vətən torpaqları uğrunda gedən döyüşlərdə saysız-hesabsız şəhidlər verdik. Onlardan misilsiz rəşadət göstərən, qəhrəmanlıq zirvəsinə ucalanlar da az olmadı.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli fərmanı ilə 12 nəfər Vətən oğluna Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Onların arasında Mehdi Abbasov, Nofəl Quliyev, Yusif Əliyev, Əlif Hacıyev, Vüqar Hüseynov, Mikayıl Cəbrayılov və başqaları var idi. Bir ay sonra isə daha 20 nəfər bu şərəfli ada layiq görüldü.

Biz torpaqdan boy atıb, torpaqdan ucalmışıq. Torpaq bizim anamızdır. Torpaq – beşiyimiz və məzarımızdır. Böyük türk şairi demişkən: "Torpaq – uğrunda ölən varsa, Vətəndir!"

Deməli, torpağı Vətənə çevirən, onun adını al qanı ilə günəşli üfüqlərə yazan – onun övladlarıdır. Görkəmli sənətkarımız Musa Yaqubun ürəklərin qeyrət-namus duyğularını bir-birinə qoşan "Bir əsgərin Tanrı duası" adlı şeirində deyildiyi kimi:

Bu ki, Vətən yürüşüdü,
Bu ki, qeyrət vuruşudu,
Bu ki, namus döyüşüdü.
Qurban gedən oğul varsa,
Ana yurdun bu, sabahla
görüşüdü.
...Vətən yoxsa, torpaq yoxsa,
yaşamağın yeri nədir?!
Ulu Tanrım!
Sən şərəfli ölümlərə
öyrət məni.
Sonra, sonra,
Torpağımın sabahında
Öz qanımdan göyərt məni!

**Kitabxanaçı:** Adları Azərbaycan tarixinə qızıl hərflərlə əbədi həkk olunan Milli Qəhrəmanların 190 nəfəri suverenliyimiz, dövlətçiliyimiz və torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş və əbədiyyətə qovuşmuşdur. Bu cəsur insanların tərcümeyi-halını vərəqləyəndə görürük ki, bizim yurddaşlarımızla yanaşı neçə-neçə xalqın namuslu övladları da bizim haqq səsimizə səs vermişdir. Biz Azərbaycanımızın qəhrəmanlıq tarixinə sidq-ürəkdən imza atmış bu insanlara dönə-dönə "Eşq olsun!" – deyirik və həmişə də deyəcəyik!

Bu kitab Azərbaycanın Milli Qəhrəmanlarından – 209 insan taleyindən söz açır. Onların həyatı, rəşadəti bizə ana Vətəni, ana torpağı – Azərbaycanımızı necə sevməyi, lazım gəlsə onun yolunda canımızdan keçməyi öyrədir. Bir məktəbdir,

universitetdir bu igidlərin həyatı, rəşadəti, döyüş hünəri! Onların hər birinin adı ürəyimizin başındadır.

Milli Qəhrəmanlarımızla bağlı kitabxanalarda **"Şəhidlik zirvəsi"** mövzusunda *dəyirmi masanın* keçirilməsi də faydalı olardı. Dəyirmi masada ilk növbədə müzakirə olunacaq məsələlər müəyyənləşdirilməli, qonaqlar əvvəlcədən təyin edilməli, mütəxəssislərin konkret mövzularda çıxışları nəzərdə tutulmalıdır. Tədbirdə tarixçilərin, ziyalıların, ictimai xadimlərin, hərbiçilərin, şəhid olmuş əsgərlərin yaxınlarının iştirakı məqsədəuyğun olar. Oxucuları və geniş ictimaiyyəti məlumatlandırmaq məqsədilə kitabxananın saytında, sosial şəbəkələrdə keçiriləcək tədbir barədə anons verilməlidir. "Dəyirmi masa"nı kitabxananın müdriyyəti və ya təcrübəli kitabxanaçılarından biri açaraq Milli Qəhrəmanların həyatı, döyüş yolu, həmçinin tədbirin məqsədi haqqında qısa məlumat verir. Sonra isə iştirakçılar öz mülahizələrini söyləyirlər.

**I iştirakçı:** Şəhidliyin həm ümumbəşəri, həm də dini yozumu və təsdiqi vardır. Təbiətin, cəmiyyətin fəlakətdən qurtulmasında, insaniyyətin, idrakın tərəqqisi yolunda həlak olan da, öz ailəsi və dövlətçilik uğrunda həlak olan da şəhiddir. Bütün hallarda şəhidlik ali və ülvi məqamdır. Qurani-Kərimdə şəhidlik cənnətin ən yüksək guşəsində dayanır. Şəhidlik ali məqam, müqəddəs taxt şəhadətidir. Bu cəhətdən istər 20 yanvar, istərsə də erməni daşnaqlarına qarşı ərazimizin bütövlüyü uğrunda gedən döyüşlərdə canlarını Vətən, Millət, Dövlət uğrunda qurban verən şəhidlər həm dini nöqteyi-nəzərdən, həm də bəşəri məzmun baxımından şərəfli və müqəddəs bir yolun yolçuları olmuşlar. Onlar daima ehtiram hissi ilə yad olunacaq, nəsildən-nəsilə nümunə göstəriləcəklər.

**II iştirakçı:** Vətənə təcavüz olunanda onu yağı düşmən saranda ilk olaraq, vətəni ana bilən onun ərazi bütövlüyünü və

müstəqilliyini qorumağa çalışan, qəlbi vətən sevgisi ilə döyünənlər silaha sarılıb vətənin müdafiəsinə qalxırlar.

1988-ci ildə mənfur ermənilərin vətənimizə təcavüzü zamanı on minlərlə vətəndaşımız Azərbaycanımızın dövlətçiliyinin, müstəqilliyimizin və ərazi bütövlüyümüzün təcavüzdən qorunması üçün mübarizəyə qalxdılar. Hər bir vətəndaş dərk etdi ki, dövlətini, torpağını qorumaq onun müqəddəs borcudur.

Təbiidir ki, müharibə qansız, itkisiz ötüşmür. Azərbaycan xalqı da bu haqq işində on minlərlə şəhid vermişdi. Şəhidlik zirvəsinə yüksələnlərin hər birinin həyatı hamımız üçün bir örnək, bir nümunə olmalıdır.

**III iştirakçı:** Bir qrup ziyalı Milli Qəhrəmanları cəmiyyətə, ictimaiyyətə tanıdacaq qurumun təsis edilməsi qərarına gəlmişlər. 2000-ci ildə bu müqəddəs amal uğrunda ilk addımlar atılmışdır. Təsis konfransı keçirilərək Azərbaycan Respublikasının Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyi yaradılmışdır. Təsis edilmiş Birlik 14 fevral 2001-ci il tarixində Ədliyyə Nazirliyindən həmin adla qeydiyyatdan keçmiş, qəbul edilmiş nizamnamə təsdiq edilmişdir. Ulu Öndərin istiqamətverici göstərişlərini əldə rəhbər tutaraq, Birlik tərəfindən Milli Qəhrəmanlar haqqında məlumatlar toplanaraq onların şəxsi arxivi yaradılmışdır. 2003-cü ildə isə Milli Qəhrəmanların ümumiləşdirilmiş foto-plakatları nəşr edilmiş, bir çox təhsil ocaqlarında həmin foto-plakatlardan istifadə edilərək Milli Qəhrəmanlar guşəsi yaradılmışdır.

Kitabxanalarda aşağı sinif şagirdlərinin iştirakı ilə nağıl otağında ***"Cəsurlar", "Şahinlər", "Sərhəd"*** *adlı hərbi-idman oyunlarının* keçirilməsini də təşkil etmək mümkündür. Bu oyunların keçirilməsində məqsəd şagirdlərdə cəsarətliliyi, çəldliyi, mübarizliyi, qələbə çalmaq uğrunda iradə

möhkəmliyinin təmin olunmasını öyrətməkdir. Keçirilən oyunlarda oğlanlarla yanaşı qızların da iştirakı təmin edilir ki, bu da işin sevindirici tərəfidir. Hərbi-idman oyunlarının təqaüdə çıxmış zabitlər tərəfindən keçirilməsi bu işdə əhəmiyyətli rol oynaya bilər. Belə mütəxəssislər şagirdlərə hərbi-vətənpərvərlik hisslərini daha keyfiyyətli şəkildə aşılaya bilərlər.

Kitabxanamızın biblioqrafiya şöbəsinin müdiri Əhmədova Sevil www.clb.az saytında Milli Qəhrəmanlarımızla bağlı video çarx yerləşdirmiş, bu mövzuda geniş ədəbiyyat siyahısı hazırlamışdır.

Kitabxanalarda Vətən uğrunda döyüşən, şəhid olan döyüşçülərimizi, Milli Qəhrəmanlarımızı tanımaq və unutmamaq üçün **"Nəsillərə yadigar əfsanəvi qəhrəmanlıq"** adlı *anım gününün* keçirilməsi vacib tədbirlərdən biridir. Anım günü ilə əlaqədar əvvəlcədən hazırlıq işləri görülməli, Qarabağ müharibəsi, Aprel döyüşləri zamanı şəhid olan döyüşçülərimiz haqqında fotostendlər, sərgilər, video çarxlar hazırlanır, sənədli filmlər göstərilir. Tədbiri keçirmək üçün ictimaiyyət nümayəndələrini, tarixçiləri, siyasətçiləri, şəhidlərin valideynlərini, döyüş yoldaşlarını dəvət etmək, Milli Qəhrəmanların xatirəsini birdəqiqəlik sükutla yad etmək məqsədə uyğun olar. Anım günü aparacının giriş sözü ilə açılır, döyüşçülərin və şəhid olmuş əsgərlərimizin həyat və döyüş yolu barədə qısa məlumat verilir. Sonra çıxışlara yer verilir, dəvət olunan qonaqlar şəhidlərin qəhrəmanlığı barədə xatirələrini danışır, hərbiçilər öz təcrübələri barədə fikirlərini oxucularla bölüşürlər.

**I Aparıcı:** Birinci Qarabağ müharibəsində Azərbaycanın şücaət göstərən çox oğlu olmuş, onlardan bəziləri müxtəlif hərbi adlar

və medallarla təltif olunmuşdur. Bu müharibə zamanı 124 igidimiz Milli Qəhrəman adına layiq görülmüşdür. Onlardan 45 nəfəri 1995-ci il Mart hadisələri zamanı dövlətçiliyin qorunması üçün göstərdikləri qəhrəmanlıqlara görə digər 5 nəfər isə dövlət sərhədlərinin toxunulmazlığının qorunması zamanı göstərdikləri şücaətlərinə görə Milli Qəhrəman adını almışlar.

**II Aparıcı:** Azərbaycanın Xocalı şəhəri 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı qüvvələri və keçmiş SSRİ-nin 366-cı motoatıcı alayı tərəfindən işğal edilmiş, dinc azərbaycanlılar misli görünməmiş qəddarlıqla qətlə yetirilmişdir. Bu faciə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ərzində baş vermiş, ən dəhşətli hadisələrdən biridir.

26 fevral günü Xocalı yer üzündən silinsə də, qəhrəmanlıq tariximizə 5 Milli Qəhrəman, 5 igid vermişdir: Bunlar Əlif Hacıyev, Ələsgər Novruzov, Tofiq Hüseynov, Araz Səlimov, Natiq Əhmədovdur.

**III Aparıcı:** Ermənistanın hərbi təcavüzü nəticəsində başlanan Qarabağ müharibəsində, eləcə də bir sıra qaynar nöqtələrdə peşə fəaliyyətini yerinə yetirərkən bir sıra azərbaycanlı jurnalistlər həyatlarını itirmişdir: Salatın Əsgərova, Ali Mustafayev, Osman Mirzəyev, Fəxrəddin Şahbazov, Arif Hüseynzadə, Çingiz Mustafayev, Kazımağa Kərimov, Fərhad Kərimov, Adil Bünyadov.

**IV Aparıcı:** Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 1994-cü il may ayının 12-dən qüvvədə olan Atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələri mövqelərimizə daim atəş açmış, dinc əhaliyə, yaşayış yerlərinə zərər vurmuşlar.

Erməni təcavüzkarlarının növbəti atəşkəs rejimini pozmaq cəhdi 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecə baş vermişdir. Gün ərzində Azərbaycanın cəbhə boyu mövqeləri və yaşayış məntəqələri güclü artilleriya atəşinə məruz qalmışdır. Nəticədə 2 dinc sakin ölmüş, 10 nəfər yaralanmış, infrastruktur obyektləri zədələnmiş, evlər dağıdılmış, əhalinin şəxsi təsərrüfatına və əmlakına xeyli ziyan dəymişdir. Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin qorunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində təxirə salınmaz cavab tədbirləri həyata keçirilmiş, Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonu istiqamətində yerləşən "Lələtəpə" adlandırılan yüksəklik düşməndən azad edilmişdir. Döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ağdərə-Madagiz istiqamətində yolların nəzarətdə saxlanılmasını təmin etmişdir.

**V Aparıcı:** Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılmışdır. Razılaşma Rusiyanın paytaxtı Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilmişdir. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirmişlər.

Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına

şərait yaranmışdır. Bu məqsədlə ölkə başçısı cənab İlham Əliyev 24 yanvar 2017-ci il tarixində "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4,0 (dörd) milyon manat ayrılmışdır.

Tarixə "Dördgünlük müharibə" adı ilə düşən aprel döyüşləri gənclərin hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi. Aprel döyüşlərində qazanılan qələbə xalqımızın orduya olan inamını artırdı. Bu gün əli silah tutan hər kəs vətən uğrunda döyüşməyə hazırdır. Son döyüşlər bir daha göstərdi ki, ordumuzun potensialı böyükdür. Bu uğurlu döyüşlər Silahlı Qüvvələrimizin gələcəkdə qazanacağı qələbələrin yalnız başlanğıc nöqtəsidir.

Gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Məhz buna görə də vəzifəsindən, ictimai statusundan, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı bu prosesdə fəal iştirak etməli, bütün qüvvə və bacarığını Azərbaycan xalqının mənafeyi naminə mübarizəyə sərf etməlidir.

# Əlavələr

**Əlavə 1**

## “Azərbaycanın Milli Qəhrəmanı” Adı Müəyyən olunsun

Azərbaycan Respublikasının 25 mart 1992-ci il tarixli qanunu

Dərc edilmişdir: “Həyat” qəzeti 28 mart 1992-ci il
Qüvvəyə minmişdir: 7 aprel 1992-ci il

(15 iyul 1992-ci il tarixli qanunla edilmiş dəyişiklik və əlavələrlə)

Azərbaycan Respublikasının Ali Soveti qərara alır:
1.Azərbaycan Respublikasının ən yüksək fərqlənmə dərəcəsi “Azərbaycanın Milli Qəhrəmanı” adı müəyyən olunsun.
2. “Azərbaycanın Milli Qəhrəmanı” adı döyüş və əmək hünərləri göstərən, Azərbaycan Respublikasının azadlığı, müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında xüsusi xidmətləri olan şəxslərə verilə bilər.

10 avqust 1992-ci il tarixdən etibarən qüvvəyə minən 15 iyul 1992-ci il tarixli qanunla 2-ci bənd aşağıdakı redaksiyada verilmişdir:

2. “Azərbaycanın Milli Qəhrəmanı” adı Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.

**Əlavə 2**

## “Azərbaycanın Milli Qəhrəmanı” Adı Haqqında Əsasnamə

“Azərbaycanın Milli Qəhrəmanı” adı Respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.

“Azərbaycanın Milli Qəhrəmanı” adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir.
Azərbaycanın Milli Qəhrəmanına aşağıdakılar təqdim edilir:
xüsusi fərqlənmə nişanı-aypara və səkkizguşəli “Ay-Ulduz” medalı;
18 aprel 1998-ci il tarixdən qüvvəyə minən 6 fevral 1998-ci il tarixli qanunla 3-cü bəndin ikinci abzası aşağıdakı redaksiyada verilmişdir:
Xüsusi fərqlənmə nişanı səkkizguşəli “Qızıl-Ulduz” medalı;
“Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi haqqında fərman.
4. “Azərbaycanın Milli Qəhrəmanı” adı eyni şəxsə bir dəfə verilir.
5. “Azərbaycanın Milli Qəhrəmanı” adı qanunvericiliklə müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir.
6. “Ay-Ulduz” medalı döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda taxılır.
18 aprel 1998-ci il tarixdən qüvvəyə minən 6 fevral 1998-ci il tarixli qanunla edilmiş dəyişiklikdən sonra 6-cı bənd aşağıdakı redaksiyada qüvvədədir:
6. “Qızıl-Ulduz” medalı sol tərəfinə, digər orden və medallardan yuxarıda taxılır.

7. Azərbaycanın Milli Qəhrəmanı adı almış şəxslər həmin addan yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhrum edilə bilərlər.

**Əlavə 3**

## Azərbaycanın Milli Qəhrəmanları

**1990-cı il**

1. Cəbrayılov Mikayıl Əhmədiyyə oğlu (1952-1990)
2. Çobanov Şamay Məhyəddin oğlu (1965-1990)
3. Əliyev İlham Müzəffər oğlu (1961-1990)
4. Rüstəmov Füzuli Salah oğlu (1965-1990)
5. Seyidov Məhərrəm Mirəziz oğlu (1952-1990)
6. Səlimov Araz Bahadur oğlu (1960-1990)
7. Şükürov Şahlar Əvəz oğlu (1952-1990)
8. Slesarov Mixail Aleksandroviç (1955-1990)

**1991- ci il**

9. Ağayev Faiq Alış oğlu (1969-1991)
10. Əhmədov Natiq İlyas oğlu (1969-1991)
11. Əkbərov Akif Abbas oğlu (1952-1991)
12. Əliyev İmamverdi Barat oğlu (1950-1991)
13. Əliyev Yusif Əliyusif oğlu (1969-1991)
14. Əsədov Əsəd Soltan oğlu (1956-1991)
15. Əsgərova Salatın Əziz qızı (1961-1991)
16. Fərəcov Ənvər Səyyad oğlu (1952-1991)
17. Hüseynov Vüqar Tofiq oğlu (1969-1991)
18. Kovalyov Yuri Petroviç (1965-1991)
19. Quliyev Nofəl Zahid oğlu (1963-1991)
20. Məmmədov Aytəkin İsrafil oğlu (1967-1991)
21. Məmmədov Kazım Ərşad oğlu (1969-1991)
22. Muradov Hikmət Oqtay oğlu (1969-1991)
23. Mustafayev Ali Mustafa oğlu (1952-1991)
24. Mehdiyev Fazil Umud oğlu (1966-1991)
25. Nəzərli Hikmət Baba oğlu (1966-1991)
26. Rüstəmov Hidayət Eldar oğlu (1970-1991)

27. Səfərov Sərdar Mədəd oğlu (1960-1991)
28. Şahbazov Fəxrəddin İbrahim oğlu (1950-1991)
29. Teymurov Rizvan Rəhman oğlu (1967-1991)

**1992 - ci il**

30. Abbasov Mehdi Yusif oğlu (1960-1992)
31. Abdullayev Maşallah Babakişi oğlu (1950)
32. Abdullayev Rövşən Əbdülhüseyn oğlu (1969-1992)
33. Abdullayev Şövqiyar Cəmil oğlu (1969-1992)
34. Ağayev Bəylər Tapdıq oğlu (1969-1992)
35. Axundov Səfa Fətulla oğlu (1958-1992)
36. Aqarunov Albert Aqarunoviç (1969-1992)
37. Allahverdiyev Namiq Müslüm oğlu (1967-1992)
38. Arazov Ənvər Talış oğlu (1953-1992)
39. Aslanov Şikar Davud oğlu (1970-1992)
40. Aslanov Niyazi Şərəfxan oğlu (1960-1992)
41. Atakişiyev Aslan Qabil oğlu (1953 -1992)
42. Bağırov Allahverdi Teymur oğlu (1946-1992)
43. Bağırov Tahir Əminağa oğlu (1957-1992)
44. Behbudov Səfiyar Abuzər oğlu (1967- 1992)
45. Davidoviç Anatoli Nikolayeviç (1965-1992)
46. Əhmədov Əsəd Cəlal oğlu (1970-1992)
47. Əhmədov Mübariz Əlizadə oğlu (1963- 1992)
48. Əhmədov Riad Fikrət oğlu (1956-1992)
49. Əliyev Ələkbər Həsən oğlu (1955- 1992)
50. Əliyev Əliyar Yusif oğlu (1957-1992)
51. Əliyev Rövşən Nəriman oğlu (1972-1992)
52. Əliyev Yavər Yaqub oğlu (1956-1992)
53. Əliyev Vasili Əhməd oğlu (1959- 1992)
54. Əliyev Yunis Əsgər oğlu (1958-1992)
55. Əsədov Malik Hamil oğlu (1962-1992)
56. Əsgərova Gültəkin Məlik qızı (1960-1992)
57. Əsədov Rəfael Əvəz oğlu (1952- 1992)

58. Fərzəliyev Pəhlivan Əhliman oğlu (1958-1992)
59. Hacıyev Əlif Lətif oğlu (1953-1992)
60. Güləliyev Oqtay Güləli oğlu (1962-1992)
61. Hacıyev Fikrət Əli oğlu (1964-1992)
62. Hacıyev Etibar Firudin oğlu (1971-1992)
63. Həsənov Məhəmməd Ələsgər oğlu (1959)
64. Həbibov Rəfael Hacı Şərafət oğlu (1964-1992)
65. Həsənov Səyavuş Həsən oğlu (1964-1992)
66. Həsənov Tahir Tofiq oğlu (1970-1992)
67. Həsənov Tabil Qasım oğlu (1960-1992)
68. Hüseynov Elşad Eynulla oğlu (1960-1992)
69. Hüseynov Əfqan Qaraxan oğlu (1963-1992)
70. Hüseynov Rövşən Şəmil oğlu (1967-1992)
71. Hüseynov Şahlar İsa oğlu (1968-1992)
72. Hüseynov Sadıq Dayandur oğlu (1961-1992)
73. Hüseynov Tofiq Mirsiyab oğlu (1954-1992)
74. Xəbibbəyli Təbriz Xəlil Rza oğlu (1964-1992)
75. Hümbətov Fərhad Qəmbər oğlu (1968-1992)
76. İbrahimov Rasim Səxavət oğlu (1962- 1992)
77. İsgəndərov Əlabbas Qara oğlu (1958-1992)
78. İsmayılov İlqar Sədi oğlu (1959-1992)
79. İsmayılov İnqilab Ələkbər oğlu (1962-1992)
80. Kərimov Kazımağa Mövsüm oğlu (1951-1992)
81. Kərimov Elgiz Kərim oğlu (1971-1992)
82. Karlov Yevgeni Nikolayeviç (1960-1992)
83. Kərimov Kərim Məhəmməd oğlu (1971-1992)
84. Qəmbərov Ramiz Bulud oğlu (1962-1992)
85. Quliyev Aqil Sahib oğlu (1963-1992)
86. Quliyev Mətləb Kamran oğlu (1959-1992)
87. Quliyev Nazim Qabil oğlu (1965-1992)
88. Qasımov İxtiyar Qasım oğlu (1970-1992)
89. Qasımov Muxtar Cahid oğlu (1958-1992)

90. Məmmədov Sahil Ələmdar oğlu (1964)
91. Məcidov Eldar Tofiq oğlu (1965-1992)
92. Məcidov Zakir Nüsrət oğlu (1956-1992)
93. Məhərrəmov Səxavət Ələmdar oğlu (1973-1992)
94. Məmmədov Aqil Səməd oğlu (1969-1992)
95. Məmmədov Əli Hüseyn oğlu (1955-1992)
96. Məmmədov Seymur Qəhrəman oğlu (1971-1992)
97. Məmmədov Nizami Murad oğlu (1958-1992)
98. Məmmədov Səfəralı Qurban oğlu (1963-1992)
99. Mənsurov Bəhruz Qəhrəman oğlu (1963-1992)
100. Mirzəyev Kərəm Ərşad oğlu (1960-1992)
101. Mirzəyev Şirin Vəli oğlu (1947-1992)
102. Muradov Ruslan Həmid oğlu (1973-1992)
103. Musayev Fəxrəddin Musa oğlu (1957-1992)
104. Mustafayev Çingiz Fuad oğlu (1960-1992)
105. Mürsəlov Vüqar Mirəzbər oğlu (1963-1992)
106. Mahmudov Ərəstun İspəndi oğlu (1957-1992)
107. Müslümov Valeh Əlizaid oğlu (1968-1992)
108. Makeyev İqor Vladimiroviç (1971-1992)
109. Nəsibov Mərifət Əhməd oğlu (1972-1992)
110. Nəsibov Kamil Balədə oğlu (1946-1992)
111. Nəsrəddinov Rafiq Hüseyn oğlu (1961-1992)
112. Niftəliyev Cəmil Səmədxan oğlu (1968-1992)
113. Novruzov Ələsgər Xanlaroğlu (1949-1992)
114. Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu (1967-1992)
115. Nəcəfov Yunis İsa oğlu (1967-1992)
116. Polovinko Ruslan Aleksandroviç (1969-1992)
117. Ocaqverdiyev Sərxan Surxay oğlu (1967-1992)
118. Paşayev Baxşeyiş Xanəhməd oğlu (1936-1992)
119. Rəhimov Koroğlu İsmayıl oğlu (1953-1992)
120. Rüstəmov Məzahir İzzət oğlu (1960-1992)
121. Rzayev Canbulaq Yaqub oğlu (1868-1992)

122. Rzayev Qasım Qara oğlu (1970-1992)
123. Rəfiyev Faiq Qəzənfər oğlu (1955-1992)
124. Senyuşkin Sergey Aleksandroviç (1957-1992)
125. Rəhimov Cavanşir İzzət oğlu (1973-1992)
126. Seryogin Viktor Vasilyeviç (1944-1992)
127. Seyidov Müzəffər Mirabdulla oğlu (1970-1992)
128. Səfərov Cəlil Əziz oğlu (1962-1992)
129. Səmədov Pərviz Əbdüləhəd oğlu (1970-1992)
130. Salahov Şakir Şamil oğlu (1966-1992)
131. Sayadov Mehman Qəzənfər oğlu (1972-1992)
132. Şikarov Şikar Şükür oğlu (1953-1992)
133. Tağızadə Eldar Abdulla oğlu (1963-1992)
134. Tağıyev Şahin Talıb oğlu (1949)
135. Yəhyayev Elşad Məmmədhənifə oğlu (1966-1992)
136. Yusifov Zakir Tofiq oğlu (1956-1992)
137. Yusifov Naiq Nəsir oğlu (1970-1992)

**1993-cü il**

138. Abdullayev Namiq Vahid oğlu (1974-1993)
139. Allahverdiyev Elbrus Hacı oğlu (1958-1993)
140. Alıcanov Rafiq Cəfər oğlu (1965-1993)
141. Aznaurov İsgəndər Söhrab oğlu (1956-1993)
142. Bayramov Sultanağa Nəhmət oğlu (1936-1993)
143. Əhədov Elşad Saday oğlu (1968-1993)
144. Əliyev Etibar Böyükağa oğlu (1955-1993)
145. Əliyev Nadir Alış oğlu (1962-1993)
146. Hüseynov Elman Süleyman oğlu (1952-1993)
147. İbrahimov Nurəddin İslam oğlu (1951-1993)
148. Məmmədov Eldar Harun oğlu (1968-1993)
149. Məmmədov İbrahim İsmayıl oğlu (1958-1993)
150. Mirzəyev Yusif Vəli oğlu (1958-1993)
151. Murtuzəliyev Sergey Murtuzəli oğlu (1963-1993)
152. Orucov Vəzir Surxay oğlu (1956-1993)

153. Sədiyev Vəzir İsa oğlu (1961-1993)
154. Təhməzov Paşa Qurban oğlu (1949-1993)

**1994-cü il**

155. Edilov Yelmar Şahmar oğlu (1946-1994)
156. Eyvazov Qorxmaz Abış oğlu (1967-1994)
157. Əkbərov Rövşən Telman oğlu (1965-1994)
158. Həsənov Eldar İsfəndiyar oğlu (1965-1994)
159. İsmayılov Etibar Bəylər oğlu (1964-1994)
160. İbrahimov Mirələkbər Mirələsgər oğlu (1961-1994)
161. Quliyev Vahid Həbibulla oğlu (1955)
162. Məhərrəmov Asif Yusif oğlu (1952-1994)
163. Məmmədov Natiq Bəşir oğlu (1975-1994)
164. Musayev Aqil Hüseyn oğlu (1974-1994)
165. Nuriyev Elnur Eyvaz oğlu (1975-1994)
166. Şahverdiyev İsrafil Şahverdi oğlu (1952-1994)
167. Zülfüqarov Elxan Qaçay oğlu (1954-1994)

**1995-ci il**

168. Ağayev Eldar Əsgər oğlu (1955-2013)
169. Allahverdiyev Bəxtiyar Əzizulla oğlu (1974)
170. Atakişiyev İntiqam Vahid oğlu (1974)
171. Ağayev Fərhad İslam oğlu (1975-1995)
172. Babayev Əjdər Xaliqverdi oğlu (1950-1995)
173. Babayev Çingiz Adil oğlu (1964-1995)
174. Babayev Nazim Abbas oğlu (1975-1995)
175. Cəbrayılov Fəxrəddin Mövsüm oğlu (1958)
176. Çirinqov Ramazan Heybullah oğlu (1969-1995)
177. Əliyev Əmiraslan Rza oğlu (1960-1995)
178. Əliyev Əsgər Ələkbər oğlu (1974-1995)
179. Əliyev Ehtiram İsrayıl oğlu (1972)
180. Əmirov Faiq İsfəndiyar oğlu (1975-1995)
181. Həsənov İlham Gülbala oğlu (1976-1995)
182. Hüseynov Elşən İbrahim oğlu (1976-1995)

183. Xəlilov Eldar Xəlil oğlu (1976-1995)
184. Xasıyev Samir Zirəddin oğlu (1973-1995)
185. İsgəndərov Famil İsgəndər oğlu (1975-1995)
186. Kərimov Bəşir Bəylər oğlu (1976-1995)
187. Qəhrəmanov Fariz Çoban oğlu (1974)
188. Quliyev Mədət Qəzənfər oğlu (1958)
189. Quliyev Mirzə Məcid oğlu (1974)
190. Quliyev Zabit Adil oğlu (1975)
191. Quliyev Emin Ələkbər oğlu (1976-1995)
192. Qurbanov Novruz Əliyullah oğlu (1975-1995)
193. Qədiməliyev Arif Maasif oğlu (1975-1995)
194. Mədətov Fariz Əlövsət oğlu (1972)
195. Məmmədov Elşad Ramiz oğlu (1975-1995)
196. Məmmədov Xanoğlan Sadıq oğlu (1975-1995)
197. Mirabov Rəşad Akif oğlu (1975-1995)
198. Nəsirov Yalçın Canhəsən oğlu (1976-1995)
199. Nağıyev Dilqəm Heydər oğlu (1975-1995)
200. Ramazanov Şamil Ağasəf oğlu (1976-1995)
201. Sarıyev Zaur Rəşid oğlu (1974-1995)
202. Şahbazov Yavər Əlibala oğlu (1973-1995)
203. Yusifov Roman Yasəf oğlu (1973-1995)
204. Zülfüqarov Samir Xəlil oğlu (1976-1995)

**1997-ci il**

205. Məmmədov Mövsüm Şahin oğlu (1967)

**1999-cu il**

206. Cəfərov Faiq Əliqulu oğlu (1974-1999)
207. Rzayev Rövşən Abdulla oğlu (1969-1999)

**2009-cu il**

208. İsgəndərov Elton Xaləddin oğlu (1990-2009)
209. İbrahimov Mübariz Ağakərim oğlu (1988-2010)
210. Qubadov Arif Vəliş oğlu (1966-2009)

**2016-cı il**
211. Murad Telman oğlu Mirzəyev (1976-2016)
212. Samid Gülağa oğlu İmanov (1991-2016)
213. Şükür Nəriman oğlu Həmidov (1975)
**2017-ci il**
214. Çingiz Salman oğlu Qurbanov (1994-2016)

**Ədəbiyyat siyahısı:**

**Milli qəhrəmanlar 2017**

Alıyev M. Mübariz dastanı. – Bakı : Tuna, 2011. – 152 s.

Çəmənli M. Fred Asif : sənədli roman. – Bakı : Təhsil, 2010. – 224 s.

Çəmənli M. Mübariz : povest. – Bakı : Təhsil, 2010. - 96 s.

Elatlı E. Qisas gecəsi : Milli Qəhrəman Mübariz İbrahimov haqqında roman. – Bakı : İdeal-Print, 2011. – 176 s.

Əliyev O. Əbədiyyətə qovuşan Koroğlu. – Bakı : Ərgünəş, 2008. – 238 s.

Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – 251 s.

Əsgərova R. Gültəkin: İki zirvə, iki and yeri : ədəbi-bədii toplu. – Bakı : Qanun, 2006. – 352 s.

Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları : Ümummilli liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmişdir. – Bakı : "Abşeron nəşr" MMC, 2013. – 224 s.

Xəlilov V. Vətən sənə oğul dedi : Azərbaycanın Milli Qəhrəmanı Eldar Xəlil oğlu Xəlilov haqqında. – Bakı : Nərgiz, 2009. – 112 s.

Xəzər E. Mübariz : poema. – Bakı : Nərgiz, 2011. – 39 s.

Ləman F. Təəssüb : Mübariz İbrahimova həsr olunur : poema. – Bakı : MBM, 2011. – 43 s.

Məmmədli F. Mübarizə davam edir... Mübarizlə: poema. – Bakı: Şirvannəşr, 2010. – 92 s.

Özgün S. A. Koroğlu : epik-poema. – Bakı : Zərdab LTD MMC, 2012. – 168 s.

Seyidzadə M. Milli Qəhrəmanlar Zirvəsi. – Bakı : Milli Qəhrəmanlar Beynəlxalq İnformasiya Mərkəzi, 2010 – 256 s.

Vəkil Ə. Əbədi qəhrəmanlıq : poema. – Bakı: Nurlan, 2005. – 88 s.

# Milli Qəhrəmanlar Zirvəsi
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 49
Çapa imzalanmışdır:10.10.2017
Tirajı:100
Pulsuz